# Qarabağa hər səfər “Böyük Qayıdış”ı daha da yaxınlaşdırır

## Prezident İlham Əliyev azad olunmuş ərazilərə bir ildə 17 dəfə səfər edib

***Əsrin əvvəllərindən Azərbaycana rəhbərlik missiyasını uğurla həyata keçirən cənab İlham Əliyev dövlətimizi qalib dövlət, xalqımızı müzəffər xalq kimi tanıtmağa nail olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi ilə reallaşmış 44 günlük möhtəşəm “Zəfər yürüşü” sayəsində bu gün bir millət kimi başımızı dik tutub gəzir və daha uca zirvələrə, daha böyük qələbələrə doğru gedirik.***

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri, necə deyərlər, bütün cəbhə boyu həyata keçirilir. Yurd yerlərinə heç bir kənar kömək olmadan, öz gücümüzə ikinci həyat verir, dağıdılmış infrastrukturu bərpa edirik. Döyüşməyi və qələbə çalmağı bacardığımız kimi, dinc quruculuq sahəsində də fenomenal nümunə göstəririk. Bütün bunlar böyük islahatçı imici ilə tanınmış cənab İlham Əliyevin qurucu lider obrazını daha da dolğunlaşdırır.

Prezidentin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strategiyasının bir istiqaməti də Qarabağın dirçəlişi prosesinə aiddir. Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Postmünaqişə dövründə cənab İlham Əliyevin Qarabağa ardıcıl səfərlər etməsi və aparılan bərpa-quruculuq işlərini yönləndirməsi Prezidentin “Böyük Qayıdış”ın sürətlənməsinə necə ciddi önəm verdiyinin göstəricisidir. Həmin səfərlərin xronikası haqlı qürur hissi doğurur.

*(ardı 7-ci səhifədə)*

# Qarabağa hər səfər “Böyük Qayıdış”ı daha da yaxınlaşdırır

*(əvvəli 1-ci səhifədə)*




Azad Qarabağa ilk səfər ötən il noyabrın 16-na, qələbədən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün sonraya təsadüf edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın həmin gün bütün təhlükələrə rəğmən Füzuli və Cəbrayıla gəlmələri Qələbənin nidası idi. Prezident bu səfərlə, əslində, sevinc hisslərini doğma xalqı ilə bölüşmək məramını ifadə edib. Xalq qalib ordunun Ali Baş Komandanını bayramsayağı coşğu ilə qarşılayıb. Burada bir detalı xatırlatmaq vacibdir ki, həmin vaxt Ermənistanda Nikol Paşinyanın öz xalqından gizləndiyi, mənfur erməni siyasətinin birdəfəlik puç olduğu günlər idi. Siyasətdə və cəbhədə, diplomatiyada və hərbi strategiyada üstünlük qazanmış Prezident İlham Əliyev isə böyük zəfərin müəllifi kimi alqışlanır, camaata gözaydınlığı verirdi.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan ilk layihə Füzuli-Şuşa avtomobil yolunun salınmasıdır. Hərbçilərimizin müzəffər yürüşü məhz bu istiqamətdəki cığırlardan başlamışdı. Qələbədən bircə həftə sonra artıq Alxanlı qəsəbəsindən Qarabağın tacı Şuşaya çəkilməyə başlanan həmin magistrala “Zəfər yolu” adı verilib. İlham Əliyev təməlqoyma mərasimində bu layihəni yüksək dəyərləndirib.

Prezident Füzuli və Cəbrayıl şəhərlərində şanlı Azərbaycan bayrağını qaldırıb. Xudafərin körpüsünə gələrək onun da üzərinə bayrağımızı sancıb. Düşmənin dağıtdığı yerlərə işarə edərək bunu yalnız şər qüvvələrin edə bildiyini söyləyib: “Erməni vəhşiliyinin canlı şahidləridir bu dağılmış evlər... Bizim parlaq qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq”.

Səfər zamanı ilk təməlqoymalar olub, baş planların tərtibinə dair göstərişlər verilib, gələcəyin hünər eskizləri cızılıb. Bunu əmək cəbhəsində monumental “Qarabağ oratoriyası”nın uvertürası da saymaq olar.

Yanvarın 14-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla xanım Əliyeva Qarabağa cari ilin ilk səfərini reallaşdırıblar. Dövlət başçısı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində yolun, həmçinin Füzulidə hava limanının təməllərini qoyub. Sonra Prezident və ailə üzvləri Şuşa şəhərinə yola düşüblər. Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın mədəniyyət paytaxtı elan etdiyi Şuşada üçrəngli bayrağımızı ucaldıb, orada hərbçilərlə görüşüb və torpaqlarımızın alınmasında onların misilsiz hünərindən danışıb.

Dövlətimizin başçısı Şuşadakı məscidlərə “Qurani-Şərif” hədiyyə edib. Bölgədə ibadət ocaqlarının bərpasına başlandığını bildirib. Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin erməni faşistləri tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Dağıdılmış inzibati binalara, Natəvan sarayına baxılıb, Natəvan bulağına, Qazançı kilsəsinə baş çəkilib. Cənab İlham Əliyev Bülbülün dağıdılmış ev-muzeyinin, Şuşa Real-nı Məktəbinin və bütün digər mədəni obyektlərin ən yüksək səviyyədə bərpa olunacağını söyləyib. Prezident deyib ki, Cıdır düzündə yenidən böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq, muğam səsi eşidiləcək.

Prezident İlham Əliyev, birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla xanım Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsində mühüm rol oynayacaq Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyulub. Birinci pilot “Ağıllı kənd” layihəsi üzrə işlərə start verilib. Laçının Güləbird kəndində su elektrik stansiyasının açılışı olub. Prezident enerji generasiya güclərinin, ötürücü xətlərin yenidən qurularaq Qarabağın “yaşıl enerji” zonasına çevriləcəyini elan edib. Həmin gün İlham Əliyev və ailə üzvləri Zəngilandakı Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkib, Bəsitçaya balıqlar buraxıblar. Cəbrayıl rayonunun Soltanlı kəndində isə Prezident işğaldan azad olunmuş torpaqlarda əkin işləri ilə maraqlanıb. Suvarılmayan 100 min hektar torpağa su verilməsi üçün tədbirlər görülməsi barədə tapşırıq verdiyini bildirib. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək.

Martın 15-də Prezident Füzuli və Xocavəndə səfəri edib. Füzuli-Hadrut və Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yollarının təməlini qoyub. Sonra Hünərli və Tuğ kəndlərində vandalizm qurbanı olmuş evlərə baxılıb, qədim alban məbədlərinə, Azıx mağarasına baş çəkilib. Dövlət başçısı ermənilərin vurduqları ziyanın bədəlini ödəməyə məcbur ediləcəyini və alimlərin Azıxda yenidən tədqiqat aparacaqlarını söyləyib.

Ertəsi gün Prezident və ailə üzvləri Şuşaya gəliblər. Burada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi qərara alınıb. Pənahəli xanın sarayının qalıqlarına, dağıdılmış Karvansaray tarix-memarlıq kompleksinə, Şuşa Dövlət Rəsm Qalereyasına, “Qarabağ” otelinə, Xalça Muzeyinə, Park-Otelin yerləşəcəyi keçmiş sanatoriya binasına, digər yerlərə baxış keçirilib. Qayıdanbaş Daşaltı kəndinə gələn Prezident buranın da bərpası ilə bağlı tapşırıqlarını verib. Bir neçə gün sonra yenidən Şuşaya gələn Prezident Cıdır düzündə tonqal yandırıb, Novruz bayramı münasibətilə xalqa müraciət edərək təbriklərini çatdırıb, bərpa ilə bağlı perspektiv planlardan danışıb.

Aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva yenidən Cəbrayıl və Zəngilan rayonlarında olublar. Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında bildirilib ki, Azərbaycan Ordusu “Zəfər yürüşü” ilə torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpasına nail olub. Ali Baş Komandan hərbi qulluqçular qarşısında çıxışında 132 kilometrlik Azərbaycan-İran sərhədinin tam bərpa olunduğunu, həmçinin Ermənistanla sərhədlər boyunca lazımi işlərin aparıldığını söyləyib. Ağalı kəndində ali rəhbərə “Ağıllı kənd” layihəsinin icrası barədə məlumat verilib. Burada işlər əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələridir. Prezident Qarabağda çalışan Türkiyə, İtaliya və İsrail şirkətlərinin əməkdaşları ilə görüşüb layihələrə xeyir-dua verib.

Mayın 12-də Azərbaycan Prezidenti İlham Əliyev Şuşada 110/35/10 kilovoltluq yarımstansiyanın açılışını edib. Həmin gün “Xarı Bülbül” oteli yenidənqurmadan sonra açılıb, “Xan qızı” bulağı ikinci həyatına başlayıb. Şuşada Xüsusi Nümayəndəliyin yerləşəcəyi inzibati binada dövlətimizin başçısı və birinci xanım bərpa işləri ilə maraqlanıblar. Yeni məscidin və ümumtəhsil məktəbinin bünövrəsi qoyulub. Bir qədər sonra isə Şuşada “Xarıbülbül” festivalı başlanıb. Açılışdakı çıxışında cənab İlham Əliyev festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsini xalqımızın öz dini, milli, mənəvi köklərinə bağlılığı ilə əlaqələndirib və iştirakçılara uğurlar arzulayıb. Ertəsi gün artıq təmir edilmiş Yuxarı Gövhərağa məscidində bayram namazı qılınıb. Cıdır düzündə ikigünlük festival yüksək səviyyədə qalakonsertlə sona yetib. Konsertdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva incəsənət xadimləri ilə görüşüblər. Deyilən sözlərin, verilən vədlərin real müstəviyə proyeksiya olunması təqdirlə qarşılanıb.

Qarabağın ən böyük şəhəri olan Ağdamda 28 May – Respublika Günündə Prezidentin iştirakı ilə Bərdə-Ağdam yolu, ilk yaşayış binası, Sənaye Parkı və məktəb binasının təməli qoyulub. Şəhər meşə-parkında ağac əkilib, tarixi binalara baxılıb, Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyində görüləcək işlərlə tanışlıq olub. Prezident rayon ictimaiyyəti nümayəndələri ilə görüşüb.

İyunun 14-də Azərbaycan rəhbəri Füzulidə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb. Bir gün sonra – Qurtuluş Günündə Şuşada Türkiyənin dövlət başçısının rəsmi qarşılanma mərasimi olub. Prezidentlər ictimai-mədəni məkanları ziyarət ediblər. Təkbətək görüşdən sonra “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalanıb. Prezidentlər mətbuata birgə bəyanatlarında həmin sənədin tarixi əhəmiyyətini yüksək dəyərləndiriblər.

Avqustun 16-da Kəlbəcər və Laçına gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər Kiçik SES-in açılışında iştirak ediblər. Cənab İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, sonra isə Laçın Beynəlxalq Hava Limanının bünövrəsini qoyub. Prezident Kəlbəcərdə Azərbaycan bayrağını qaldırıb, görülən işlərdən danışıb. Bundan iki həftə sonra cənab İlham Əliyev yenidən bölgəyə gələrək, “Zəfər yolu”nda son tamamlama işləri ilə tanış olub, Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə maraqlanıb. Şuşada yeni yaşayış massivinin təməli qoyulub. Səfər, həmçinin “Qarabağ” otelinin, dahi şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin və büstünün, Üzeyir Hacıbəylinin heykəlinin, Bülbülün ev-muzeyinin açılışları ilə yadda qalıb. Prezident İlham Əliyevə Şuşa şəhərinin baş planı təqdim olunub.

Oktyabrın 3-4-də Tərtər və Bərdə rayonlarına səfər edən dövlətimizin başçısı Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub, Talış kəndində və Suqovuşanda Azərbaycan bayrağını ucaldıb. Ermənilərin dağıtdığı alban-udi və pravoslav kilsələrində olub. Prezident “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib. Həmin gün dövlət başçısı Bərdə və Cəbrayıla da gedərək mühüm açılışları edib, yeni obyektlərin təməlini qoyub və ictimaiyyət nümayəndələri ilə görüşüb.

Cənab İlham Əliyev bundan iki həftə sonrakı Füzuli səfəri burada aeroportun tikintisinin başa çatdığı vaxta təsadüf edib. Yenə də açılışlar, təməlqoymalar reallaşıb. Zəngilanda isə “Ağıllı kənd”, “Ağıllı məktəb”, Ağıllı idarəetmə sistemi” layihələri ilə, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksində yaradılan şəraitlə, Zəngilan Beynəlxalq Hava Limanının inşası ilə tanışlıq olub. Qubadlıda da bərpa və quruculuq işlərinin necə böyük vüsətlə aparıldığı nümayiş etdirilib.

Oktyabrın 26-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı, Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, Zəngilanda “DOST Aqropark”ın təməlinin qoyulması səfərləri zamanı reallaşdırılan tarixi hadisələrdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Füzulidə “Zəfər yolu”nun açılışına gəliblər. Şuşada bir sıra təməllər qoyub və VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşüblər. Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Topxana meşəsində ağacəkmə kampaniyasına qatılıb. Zəfər Gününü Şuşada keçirən dövlət başçısı və xanımı Cıdır düzündə hərbçilərlə görüşüblər. Prezident onların qarşısında çıxış edib və bayram təbriklərini çatdırıb.

Tez-tez Qarabağa səfər etməsi, böyük infrastruktur layihələrinin təməlini qoyması, dost və tərəfdaş ölkələrin şirkətlərini Qarabağa investisiya yatırmağa dəvət etməsi bir daha Prezidentin məramının məhz Qarabağı yenidən cənnətə çevirmək olduğunu göstərir. Elə dövlət başçısının “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 10 dekabr 2021-ci il tarixli sərəncamı da bu amala xidmət edir.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***